*https://doi.org/10.30546/114578.2025.9.1007*

# SEYİD ƏZİM ŞİRVANİ YARADICILIĞINDA RUHANİLİYİN TRANSFORMASİYASI

**Aygün Heydərova**
*filologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/0000-0002-2517-9145*
*heydarovaa89@gmail.com*

**Xülasə**

Yazıda XIX əsr Azərbaycan maarifçiliyinin öncüllərindən olan Seyid Əzim Şirvaninin ictimai yaradıcılığında tənqidi realizm estetikasının təzahür formaları təhlil edilir, şairin dini-mənəvi müstəvidə saxta ruhanilərə qarşı sərgilədiyi sərt mövqe, sosial ədalətsizliyə və feodal-patriarxal münasibətlərə qarşı çıxışı dini və ictimai dəyərlərin humanist interpretasiyası kontekstində öyrənilir. Şirvaninin tənqidi realizmi ictimai tənqid və maarifçilik məramını birləşdirərək, cəmiyyətdə maarifin rolunu önə çıxarır və xalqı elmə, təhsilə çağırır. Ruhaniliyin transformasiyası onun yaradıcılığında dini mərasimlərdən kənar, elmi və humanist mahiyyət daşıyan geniş bir konsepsiyaya çevrilir. Sovet dövrü yanaşmaları ilə müqayisədə müasir tədqiqatlar onun əsərlərindəki dini tənqidin dini inkar yox, saxta ruhanilərin ifşası olduğunu vurğulayır. Məqalədə həmçinin Şirvaninin satirasında ifşaedici yox, maarifləndirici və tərbiyəedici tənqid forması əsas xətt kimi göstərilir. Əsərlərinin mərkəzində cəmiyyətin şüursuzluğu dayanır və bu səbəbdən tənqid hədəfi konkret sinif deyil, ümumi sosial mühitdir.

**Açar sözlər:** Seyid Əzim Şirvani, tənqidi realizm, ruhanilik, ictimai tənqid, maarifçilik, milli şüur.

# TRANSFORMATION OF SPIRITUALITY IN SEYID AZIM SHIRVANI'S CREATIVE WORK

**Aygun Heydarova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

This paper analyzes the manifestations of critical realism aesthetics in the social works of Seyid Azim Shirvani, one of the pioneers of 19th-century Azerbaijani enlightenment. It examines the poet's stern stance against pseudo-clerics within the religious and spiritual sphere, as well as his opposition to social injustice and feudal-patriarchal relations, within the context of a humanistic interpretation of religious and social values. Shirvani's critical realism integrates social critique with the mission of enlightenment, emphasizing the role of education in society and calling the people towards science and learning. The transformation of spirituality in his works expands beyond religious rituals to encompass a broader concept grounded in scientific and humanistic principles. Compared to Soviet-era interpretations, contemporary scholarship highlights that Shirvani's religious criticism is not a rejection of religion itself but an exposure of false clergy. The article further underscores that in Shirvani's satire, the prevailing mode of critique is not merely expositional but also educative and instructive. At the core of his works lies a critique of societal ignorance, targeting not a specific class but the general social milieu.

**Key words:** Seyid Azim Shirvani, critical realism, clergy, social criticism, enlightenment, national consciousness.

## ТРАНСФОРМАЦИЯ ДУХОВНОСТИ В ТВОРЧЕСТВЕ СЕЙИДА АЗИМА ШИРВАНИ

**Айгюн Гейдарова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

В статье анализируются формы проявления эстетики критического реализма в общественном творчестве Сейида Азима Ширвани − одного из выдающихся представителей азербайджанского просвещения XIX века. Рассматривается жёсткая позиция поэта в религиозно-нравственной сфере против лжеруководителей духовенства, а также его противодействие социальной несправедливости и феодально-патриархальным отношениям в контексте гуманистической интерпретации религиозных и общественных ценностей. Критический реализм Ширвани объединяет общественную критику и просветительскую миссию, подчёркивая роль просвещения в обществе и призывая народ к науке и образованию. Трансформация

духовности в его творчестве выходит за рамки религиозных обрядов и приобретает более широкое значение, основанное на научных и гуманистических принципах. В отличие от советских подходов, современные исследования подчёркивают, что его религиозная критика направлена не на отрицание религии, а на разоблачение лжедуховенства. В статье также отмечается, что в сатире Ширвани преобладает не столько разоблачительный, сколько просветительский и воспитательный тип критики. В центре его произведений находится критика общественного невежества, причём объектом критики является не конкретный класс, а общественная среда в целом.

**Ключевые слова:** Сейид Азим Ширвани, критический реализм, духовенство, общественная критика, просвещение, национальное сознание.

**Giriş/Introduction**

XIX əsr Azərbaycan ədəbiyyatında ictimai və dini-mənəvi problemlərin ədəbiyyata daşınması istiqamətində mühüm addımlar atan maarifçi şairlərdən biri də Seyid Əzim Şirvanidir. Onun yaradıcılığı milli oyanış prosesinin poeziyada ifadəsi olmaqla yanaşı, həm də tənqidi realizmin ciddi nümunələrini təqdim edir. Şairin əsas mübarizə hədəfi cəmiyyətin geriliyi, şüursuzluğu və xüsusilə də din pərdəsi altında xalqa zülm edən saxta ruhanilər olmuşdur. Məqalənin məqsədi Seyid Əzim Şirvaninin ictimai lirikasında ruhaniliyin transformasiya olunma üsullarını təhlil etməkdir.

**İctimai tənqid və maarifçilik.** Şirvaninin yaradıcılığı XIX əsr Azərbaycan ədəbiyyatında tənqidi realizmin ən mühüm mərhələlərindən birini təşkil edir. Onun poetik dünyagörüşündə ictimai tənqid və maarifçilik bir-birini tamamlayan iki əsas istiqamətdir. Şair yalnız fərdi eyibləri deyil, bütövlükdə xalqın zehni süstlüyünü, maarifə qarşı laqeydliyini, elmsizliyini və passiv mövqeyini kəskin satira ilə ifşa edir. Bu tənqid konkret sinfi maraqlara deyil, ümumi cəmiyyətin mənəvi və intellektual zəifliklərinə yönəlir.

Şirvaninin ictimai tənqidinin əsas məqsədi eyibləri göstərməklə kifayətlənmək deyil, o, eyni zamanda bu eyiblərin aradan qaldırılması yollarını da göstərir. Şairin satirik lirikasında xalqın elm və təhsildən uzaq qalmasının sosial-mədəni geriliyə səbəb olduğu vurğulanır. Onun poeziyası şəxsi kədərin deyil, ictimai ümidsizliyin ifadəsidir və bu ümidsizlik, xalqın öz taleyinə biganəliyindən qaynaqlanır.

Maarifçilik isə Şirvaninin tənqidinin ideoloji dayağıdır. O, xalqın tərəqqisini yeni dünyəvi elmlərə yiyələnməkdə, milli şüuru oyatmaqda və mədəniyyətə açıq olmaqda görür. Şair üçün maarif yalnız bilik toplamaq deyil, həm də cəmiyyətin mənəvi dirçəlişinin yeganə yoludur. Bu baxımdan onun satiraları maarifçiliyin poetik manifestinə çevrilir, eyiblərin ifşası maarifə dəvət ilə tamamlanır:

*Dadü fəryad, ey güruhi-izam,*
*Oldu zaye bu millәti-islam.*
*Günü-gündən zəlilü xar olduq,*
*Möhnətü qüssəyə düçar olduq.*
*Bu qədər dərd kim olur hadis,*
*Ona bielmlik olur bais.*
*Bir bəladır bu dərdi-nadani,*
*Ki, onun elm olubdu dərmani* [Şirvani, 2005:117].

Şirvani tənqidi realizmi maarifçiliklə birləşdirərək, poeziyanı ictimai islahatın mühüm vasitəsinə çevirir. Onun ictimai tənqidi, maarifçilik məramı ilə vəhdətdə, XIX əsr Azərbaycan ədəbiyyatında milli şüurun formalaşması və cəmiyyətin tərəqqi istiqamətində dəyişməsi prosesinə əhəmiyyətli töhfə verir.

Şirvaninin şeirlərindəki ictimai tənqid konkret sinfi deyil, ümumi cəmiyyətin mənəvi və intellektual zəifliyini hədəf alır. Onun şikayət və narazılıqla dolu şeirləri şəxsi kədərin deyil, ictimai ümidsizliyin poetik ifadəsidir. Bu cür kədərin qaynağı cəmiyyətdəki zehni süstlük, gerilik, elmsizlik və passivlikdir. Şairin məqsədi bu şüursuzluğu göstərmək və maarifçilik yolu ilə xalqı oyatmaq olmuşdur.

Müstəqillik dövründə aparılan araşdırmalar göstərir ki, XIX əsr Azərbaycan ədəbiyyatında tənqidi realizm nümunələri, xüsusilə də Şirvaninin satirası, əsasən maarifçi dünyagörüş kontekstində dəyərləndirilir. Onun sənət kredosu milli şüuru oyatmaq, vətəndaş birliyi və düşüncəsinə nail olmaq idi. Şair bu mübarizəyə “işin ibtidası”ndan – yəni maarif və tərbiyədən başlamış, satirasında sinfi və təbəqə fərqlərini əsas hədəf kimi götürməmişdir. Sovet ideoloji yanaşmaları XIX əsrin mühitini avamlıq və cahillik mühiti kimi təqdim edərək, Şirvani yaradıcılığının estetik idealını dar çərçivəyə salmışdır. Halbuki onun poeziyasında inkar ilə təsdiq bir-birini tamamlayır. Bu baxımdan, Şirvani yaradıcılığı maarifçi dünyagörüşünün ifadəsi olaraq milli şüurun formalaşdırılması funksiyasını daşıyırdı.

**Ruhaniliyin transformasiyası.** XIX əsr Azərbaycan cəmiyyətində “ruhanilik” anlayışı əsasən mollalar, vaizlər, şeyxlər ilə eyniləşdirilirdi. Ruhani

olmaq, ənənəvi təsəvvürdə, dini ayinləri icra etmək və dini qanunları təbliğ etmək demək idi. Lakin Şirvani bu anlayışı həm məzmun, həm də funksional baxımdan dəyişdirərək, ona yeni mənəvi çalarlar qazandırmışdır.

Şair üçün əsl ruhanilik yalnız dini mərasim və ayinlərin icrası ilə məhdudlaşmır, o, elm, maarif, əxlaqi kamillik və insani dəyərlərlə tamamlanırdı. Bu baxımdan Şirvani ruhaniliyin əsas məqsədini xalqın mənəvi inkişafına xidmət kimi müəyyənləşdirir. Onun satirik əsərlərində "vaiz", "şeyx", "zahid" kimi obrazlar dini şəxsi və siyasi maraqlarına alət edən saxta ruhanilərin simvoluna çevrilir. Ruhaniliyin transformasiyası Şirvaninin yaradıcılığında iki istiqamətdə baş verir:

Birinci istiqamət ifşaedici xüsusiyyət daşıyaraq saxta ruhanilər, mövhumat, xurafat və dini istismar kəskin satira obyektinə çevrilir. Bu, ruhaniliyin tarixi mahiyyətini təhrif edən mənfi təzahürlərin üzə çıxarılmasıdır.

İkinci istiqamət bərpaedici xüsusiyyət daşıyaraq əsl ruhaniliyin elmə, tərəqqiyə, humanizmə və maarifçiliyə əsaslanmalı olduğunu dəstəkləyir. Şair əsərlərində dini-mənəvi dəyərlərin yenilənməsi və cəmiyyətin tərəqqi prosesinə uyğunlaşdırılması zərurətini müdafiə edir. Bu yanaşma nəticəsində ruhanilik anlayışı dar dini çərçivədən çıxaraq, milli oyanış, maarifçilik və sosial ədalət kimi geniş mənəvi kateqoriyalara transformasiya olunur. Beləliklə, Şirvani üçün ruhanilik dinin formal qaydaları deyil, onun maarifçi və humanist ruhudur.

Şirvani Allahı və İslamı inkar etmədən, əksinə, onları müqəddəs sayaraq, dinin mahiyyətinə zidd davranan, onu şəxsi və siyasi məqsədləri üçün alət edən saxta ruhaniləri sərt şəkildə tənqid edir. Şairin qəzəl və rübailərində "vaiz", "şeyx", "zahid" obrazları vasitəsilə din adı ilə xalqı aldadanlar ifşa olunur. Onlar sadəcə ictimai yuxarı təbəqənin deyil, həm də mənəvi çöküşün rəmzlərinə çevrilir. Şirvani feodal dövrün dindarlarını sadəcə din adamı kimi deyil, mövcud sistemin qoruyucusu, cəhalətin daşıyıcısı kimi təqdim edir. Onun "Elmsiz alim", "Köhnə elmdən şikayət", "Avam ata və alim oğul" kimi əsərlərində maarifə qarşı laqeydliyin fəsadları satirik tonda təsvir edilir. "Riyakar abid" və "Köpəyə ehsan" kimi nümunələr isə xalqın mənəvi inkişafına mane olan qüvvələrin bədii ifşasıdır. Bu tənqid ifşa xarakteri daşımaqdan daha çox maarifləndirmə və dəyişdirməyə yönəlmişdir.

Şirvani üçün tənqid yalnız geriliyin təsviri deyil, həm də islah yolu göstərməkdir. Onun poetik çağırışlarında xalqı elmə, təhsilə, düşüncəyə dəvət etmək əsas xətti təşkil edir. Xüsusilə satirik şeirlərində cəmiyyətin müxtəlif təbəqələrinin maarifə qarşı laqeydliyinə qarşı yönəlmiş sətirlər ictimai məsuliyyət hissini oyatmaq məqsədi daşıyır.

Zaman Əsgərlinin də qeyd etdiyi kimi: *"Seyid Əzim Şirvani ictimai baxışlarına görə maarifçi sənətkar idi. O, cəmiyyətin inkişafının əsas mənbəyini xalqın social-mədəni tərəqqisində, onun yeni dünyəvi elmə və maarifə yiyələnməsində görürdü"* [Əsgərli, 2005:31].

**İdeoloji təhriflər və müasir yanaşma.** Şirvaninin yaradıcılığına nəzər saldıqda iki yanaşma ilə qarşılaşırıq: sovet dövrünün yanaşması və müstəqillik dövrünün yanaşmasını. Sovet dövründə yanaşmalar mövcud ideoloji çərçivələrin təsiri altında formalaşmışdır. Sovet ideologiyası dini ümumən gerilik, mövhumat və xurafatın mənbəyi kimi qiymətləndirir, ruhaniliyi isə ictimai tərəqqiyə mane olan bir institut kimi təqdim edirdi. Bu səbəbdən, XIX əsr ədəbiyyatında ruhanilik mövzusu araşdırılarkən, sənətkarların dini baxışları çox vaxt nəzərə alınmır, saxta ruhanilərə qarşı tənqid isə din əleyhinə mövqe kimi şərh edilirdi: *"Seyid Əzim başdan-ayağa bütün dil və mövhumat zumrəsinə hucum edir"* [XIX əsr AƏ, 1930:4] və ya *"Onun qəzəllərində həyat sevgisi, dünyəvi nemətlərin tərənnümü, nikbin əhval-ruhiyyə çox qüvvətlidir. Şair bəzi qəzəllərində islam dininin mənəvi əsarətinə, mövhumat və xurafata, vaizin yalançı vədlərinə qarşı çıxır, səadəti yer üzündə axtarır, axirətpərəstliyi, tərkidünyalığı rədd edir, behiş və hurini dünyada görür"* [Şirvani, 1960:8]. Nəticədə, Şirvaninin ruhaniliyə münasibəti birtərəfli təqdim olunur, onun əsl məqsədi – dini istismardan təmizləyərək mənəvi-əxlaqi dəyərlərin bərpasına çalışması – arxa plana keçirilirdi.

Professor Təyyar Salamoğlunun qeyd etdiyi kimi, *"Potensial gücü, əslində ictimai qanunauyğunluğu mümkün qədər pozmaq, zəiflətmək üçün sosializmin ideoloqları aşağı və yuxarı təbəqələr arasında barışmaz, antaqonist ziddiyyətlərin olması ideyasını dövriyyəyə buraxır, iki tərəfi düşmən təbəqələr kimi üz-üzə qoyur, birinciləri haqqı tapdalananlar, istismar olunanlar, ikinciləri isə haqqı tapdayanlar, istismarçılar kimi qələmə verir, beləliklə, milli birliyin formalaşmasına, möhkəmlənməsinə sağalmaz yara vururdular. Sovet rejimi bu baxış sistemini humanitar düşüncəyə ötürür, dialektik materializm, tarixi materializm adı altında onun fəlsəfəsini hazırlayır, xalqın tarixini, o cümlədən ədəbiyyat tarixini ancaq bu istiqamətdə yazmağa və şərhə icazə verirdi. Bu, bizim klassik irsimizin ədəbiyyatşünaslıq şərhlərində açıq-aşkar görünən bir cəhətdir"* [Salamoğlu, 2023].

Bu müasir baxış ruhaniliyi yalnız dini yanaşma olaraq məhdudlaşdırmayaraq, onu elm, əxlaqi kamillik, humanizm və milli oyanışla əlaqəli geniş bir mənəvi kateqoriya kimi təqdim edəcəkdir. Beləliklə, Şirvaninin yaradıcılığında ruhaniliyin transformasiyası ideoloji məhdudiyyətlərdən azad

edilərək, tarixi gerçəkliyinə və maarifçi missiyasına uyğun şəkildə yenidən şərh olunur.

Şirvaninin satirası ifşa və nifrətdən çox, islah və yönləndirməyə xidmət edir: *"Realist bir şair olan Seyid Əzim həyatın yalnız mənfi cəhətlərini, təkamülə, inkişafa mane olan eyidlərini göstərməklə məhdudlaşmamış, yalnız inkar, ifşa yolu seçməmişdir"* [Hüseynov, 1987:65]. Onun poeziyasında satira cəmiyyətin eyiblərini göstərməklə yanaşı, həmin eyiblərdən qurtulma yollarını da təklif edir. Bununla da tənqidi realizm onun yaradıcılığında həm də bir maarifçilik metoduna çevrilir.

**Nəticə/Conclusion**

Seyid Əzim Şirvani yaradıcılığı XIX əsr Azərbaycan ədəbiyyatında milli şüurun oyadılması istiqamətində atılmış ən mühüm addımlardan biridir. Onun ictimai lirikasında din, ruhaniyyət, sosial ədalət və maarifçilik motivləri bir-birinə bağlı şəkildə təqdim olunur. Şairin tənqidi satirası riyakar din xadimlərinə qarşı sərt mövqe nümayiş etdirməklə yanaşı, cəmiyyətin bütün təbəqələrini mənəvi və intellektual oyanışa çağırır.

## ƏDƏBİYYAT/REFERENCES

1. Əsgərli, Z. (2005). Seyid Əzim Şirvani. – Bakı: "Elm". – 64 s.
2. Hüseynov, S. (1987). Seyid Əzim Şirvani. − Bakı: "Yazıçı". – 124 s.
3. Qarayev, Y. (1980). Azərbaycan realizminin mərhələləri. – Bakı: "Elm". – 258 s.
4. Salamoğlu, T. (2023). Siyasətin fəlsəfəsi və ədəbiyyatımız. – Bakı: "Ədəbiyyat" qəzeti, 2023, 19 oktyabr. https://literature.az/?page=118752& newsId
5. Şirvani, S.Ə. (1960). Qəzəllər. − Bakı: Azərnəşr. – 658 s.
6. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri. 3 cilddə, II cild. − Bakı: "Avrasiya press". – 384 s.
7. XIX əsr Azərbaycan ədəbiyyatı (1930). Seyid Əzim. Seçilmiş əsərləri. − Bakı: Azərnəşr. – 280 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *11.08.2025*
*Qəbul edilib* *28.08.2025*
*Nəşrə tövsiyə edib* *Razim Məmmədov*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*